# «Gənc xilasedici və yanğınsöndürən» yarışları üzrə respublika və beynəlxalq birinciliyinə start verilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90 illiyi münasibətilə Fövqəladə Hallar Nazirliyinin Qəbələdə yerləşən «N» saylı hərbi hissəsində məktəblilər arasında Gənc xilasedici və yanğınsöndürən yarışlarının respublika və beynəlxalq birinciliyinə start verilib. FHN-in təşkilatçılığı, Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilən yarışda respublikanın müxtəlif rayonları ilə yanaşı 6 ölkənin təmsilçiləri də qatılmışlar.





Beynəlxalq səviyyəli turnirin açılışında Fövqəladə Hallar Nazirliyinin məsul şəxsləri, rayon icra hakimiyyətinin işçiləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak etmişlər. Çıxış edənlər belə yarışların əhəmiyyətindən, yeniyetmə və gənclərin fövqəladə hallara hazırlıq səviyyəsinin yüksəldilməsindən, məktəblilər arasında şəxsi və ictimai təhlükəsizliyə məsuliyyətli yanaşma hissinin artırılmasından danışmışlar.

Yarış kombinə edilən yanğın estafeti, manеələr zolağı, axtarış-xilasetmə işi, gənc ekspertlər və komandaların təqdimatı müsabiqəsi mərhələlərindən ibarətdir.

Yarışda qalib gələn komandalara kubok və fəxri fərmanlar veriləcək. Həmçinin qalib komandalar final mərhələsinə vəsiqə qazanacaqlar.

**Oqtay MƏMMƏDOV.**

# Çəkilən zəhmət bəhrəsini verir

Qəbələ rayonunun iqtisadiyyatında taxılçılıq başlıca yer tutur. Bu sahə ilə bağlı rayonda aparılmış uğurlu islahatlar öz bəhrəsini verir. Dövlətin kənd təsərrüfatı işçilərinə göstərdiyi qayğı, yaratdığı şərait qəbələliləri torpağa ürəkdən bağlayıb. Elə buna görə burada ötən illərlə müqayisədə taxıl əkini sahələri xeyli genişləndirilmiş, səpin mövsümündə ən yüksək məhsuldarlığa malik toxum sortlarından istifadə edilməsinə diqqət artırılmışdır.

Bu ilin məhsulu üçün 2012-ci ilin payızında fermerlər və torpaq mülkiyyətçiləri 25.958 hektar sahədə taxıl əkib. Onun 19.303 hektarı buğda, qalanı isə arpadır. Yazın əvvəlindən havaların qeyri-sabit keçməsi torpaq sahibkarlarını xeyli qayğılandırsa da, narahat günlər arxada qalıb. Taxıl zəmilərində bol məhsul yetişib və taxılçılar böyük zəhmətlə yetişdirdikləri məhsulu itkisiz toplayırlar. Rayonda iyunun ikinci ongünlüyündən sonra arpa biçini başlayıb. Demək olar ki, arpa biçini başa çatıb. Biçin kompaniyasında 42 kombayn, xeyli sayda kənd təsərrüfatı texnikası və kifayət qədər avtomaşın iştirak edir. Aramsız yağan yağışlar məhsulun sahələrdən fasiləsiz toplanmasına müəyyən mənada təsir edib. Buna baxmayaraq kombayņçılar sahələrə çıxıb itkiyə yol verməmək üçün əzmkarlıq göstərdilər.

Əldə etdiyimiz məlumata görə rayon üzrə orta hesabla hər hektardan 28 sentner arpa toplanmışdır. Bu, əvvəlki illə müqayisədə çoxdur. Amma bəzi fermerlər və fiziki şəxslər daha çox məhsul istehsal ediblər. "Həsrət" kəndli fermer təsərrüfatı, "Gilan" MMC və fiziki şəxs Tehran Səddinov, hər hektardan 30-40 sentnerə yaxın taxıl istehsal edib.

Ümumiyyətlə, rayon üzrə 13.390 ton arpa yığılmışdır. İndi buğda sahələrdində biçinin qızğın çağıdır. Son məlumata görə 6.150 hektardan çox sahənin məhsulu biçilib. Hər hektardan 25-30 sentner məhsul toplanır. Ehtimal edilir ki, taxılın məhsuldarlığı ötən ildəkindən yüksək olacaq. Buğda zəmilərinə birinci başlayan Qaradeyn, Quşlar, Savalan, Bəyli, Yeni Dizaxlı, Ziring kəndlərinin əməkçiləri biçini itkisiz və tez başa çatdırmışlar. Bayramkoxalı, Kürd, Hacıalılı, Mamaylı kəndlərində biçin sürətlə davam edir. İndi həmin kəndlərdə taxıl biçinində iştirak edən mexanizatorlar gündəlik iş normasını artıqlaması ilə yerinə yetirirlər. Onu da qeyd etmək lazımdır ki, taxıl yığımında "Aqrolizinq" ASC-nin "Aqroservis" rayon şöbəsinin texnikası yetərincə iştirak edir.

Həyata keçirilən məqsədyönlü tədbirlərə əsasən demək olar ki, Qəbələ taxılçıları biçini tez və itkisiz başa çatdıracaqlar.

**Elmdar ŞƏRİFOV,**
**rayon icra hakimiyyətinin aqrar şöbəsinin baş aqronomu.**

# Silahlı Qüvvələrimizin Bakı hərbi paradı ölkəmizin müdafiə qüdrətinin nümayişi oldu

İyunun 26-da Bakıda Azərbaycan Silahlı Qüvvələrin 95 illiyi münastbətilə möhtəşəm təntənəli hərbi paradı keçirildi. Bu parad Silahlı qüvvələrimizin bir daha hansı gücə, hansı hərbi qüdrətə, hansı müdafiə potensialına qadir olduğunu nümayiş etdirdi. Parad bir daha göstərdi ki, son illr ərzində ordumuzun texniki təchizatında daha böyük dönüş yaranmış, yeni texnika, silah-sursat alınmaqla, hərbi qüdrətimiz qat-qat artırılmışdır. Bununla yanaşı cənab Prezidentin, Ali Baş Komandanın qeyd etdiyi kimi, əlbəttə, yeni alınan və Azərbaycanda istehsal olunan hərbi texnikanın yalnız bir hissəsi, sadəcə olaraq cüzi bir hissəsi paradda nümayiş etdirilmişdir.

Faktlara müraciət etsək, son 10 ildə ordumuzun inkişafı daha aydın nəzərə çarpar. Əgər 2003-cü ildə hərbi büdcəmiz 163 milyon dollar idisə, ötən il bu rəqəm 3,6 milyard, bu il isə 3,7 milyard dollara çatmış, yəni 28 dəfədən çox artmışdır. Göstəricilər bizə onu deyir ki, müstəqil dövlətimizdə ordu quruculuğu prioritet məsələ kimi qarşıya qoyulmuşdur. Cənab Prezident İlham Əliyev paraddakı nitqində də demişdiir: «Ordu quruculuğu bizim üçün ən başlıca, ən prioritet məsələdir. Bu, hər bir ölkə üçün belədir. Çünki hər bir ölkə özünü müdafiə etməlidir. Xüsusilə müharibə şəraitində yaşayan ölkələr üçün bu, çox böyük əhəmiyyətə malikdir». Əlbəttə, Ermənistanın Azərbaycanla apardığı ədalətsiz müharibə beynəlxalq normalara uyğun olaraq öz həllini tapmayınca ordumuzun möhkəmləndirilməsi daha böyük əhəmiyyət kəsb edir. Bütün beynəlxalq təşkilatlar haqsız işğalla bağlı qərar və qətnamələr qəbul etmişlər. Lakin Ermənistan bu qətnamələrə məhəl qoymur, beynəlxalq hüquq normalarını pozur, danışıqlar isə nəticə vermir.

Doğrudur, Azərbaycanın yerləşdiyi geosiyasi məkan və zəngin təbii sərvətlər əsrlər boyu böyük imperiyaların diqqətini cəlb edib, bu ölkə zaman-zaman onların hücumlarına məruz qalıb. Son iki-üç əsrdir ki, Ermənistan da çar Rusiyasına, sovet imperiyasına arxalanaraq əzəli Azərbaycan torpaqlarını hissə-hissə işğal etmişdir. Lakin Azərbaycan xalqı göstərdiyi böyük şücaət və qəhrəmanlıq nəticəsində öz milli mənsubiyyətini qoruyub saxlamışdır. Bu, xalq dastanlarımız, azadlıq və müstəqillik uğrunda mübarizə tariximiz nəzərdən keçirilərkən daha aydın nəzərə çarpır. Hələ XX əsrin əvvəlllərində çar Rusiyası süquta uğradıqdan sonra 1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika— Azərbaycan Xalq Cümhuriyyəti yaranmışdır. Xalq Cümhuriyyəti müstəqil dövlətin bütün atributlarını təsis etməklə yanaşı iyunun 26-da Azərbaycan Milli Ordusunu da yaratmışdır. Hərbi ustalığa malik azərbaycanlı generallar Səmədbəy Mehmandarovun, Əlağa Şıxlınskinin komandanlığı altında Azərbaycan Ordusu düşməni bütün cəbhələrdə darmadağın etmişdir.

1920-ci ildə Xalq Cümhuriyyəti süquta uğradıqdan sonra Azərbaycan milli ordusu ləğv edilmiş, böyük sovet imperiyasının ümumi sovet ordusu yaranmışdır. Lakin geci-tezi Azərbaycanın müstəqillik qazanacağını görə bilən ümummilli liderimiz Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə milli hərbiçi kadrların hazırlanmasına xüsusi diqqət yetirmişdir. Nəhayət, 1991-ci ildə ölkəmiz yenidən müstəqillik əldə etdikdən sonra əvvəlcə könüllü dəstələrdən ibarət Azərbaycan milli ordusu yenidən yaranmağa başladı. 1993-cü ildə ulu öndərin xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra milli ordunun yaranması və möhkəmlənməsi sürətləndi. Orduda köklü islahatlar başlandı. 1994-cü ilin may ayında Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ müharibəsi üzrə atəşkəs əldə olundu. Bu illərdə Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda Silahlı Qüvvələr üçün kadrlar hazırlayan təhsil ocaqları yarandı, Azərbaycan zabitlərinin dünyanın nüfuzlu hərbi məktəblərində təhsil alması üçün imkanlar yaradıldı. Sonralar ulu öndərin ordu quruculuğu siyasəti böyük şəxsiyyətin davamçısı İlham Əliyev tərəfindən davam etdirildi. Müdafiə Sənayesi Nazirliyinin yaradılması bu istiqamətdə atılan addımlardan biridir. İndi Azərbaycan Silahlı Qüvvələri ölkənin müstəqiillyini qoruyub saxlamağa qadir bir ordudur.

İyunun 26-da Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 95-ci ildönümü münasibətilə Bakının Azadlıq Meydanında keçirilən təntənəli hərbi paradı izləyənlər bir daha şahid oldular ki, Azərbaycan Milli Ordusu çox güclü ordudur və Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızı geri qaytarmağa qadirdir. Xalq inanır ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində istər sülh yolu ilə, istər müharibə yolu ilə də olsa Dağlıq Qarabağda, Bakının Azadlıq Meydanında qələbə paradının keçirilməsi də çox uzun vaxt çəkməyəcəkdir.

**Nadir ATAKİŞİYEV.**